# Bayram təntənəsi




**Bakı şəhərində əzəmətli bir sarayın həyatində Hacıqabul Rayon Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunun təqdimat mərasimi başladı.**

Həyətdə Qoruğa aid foto-stend, eksponatlar, albomlar, kitablar, disklər nümayiş etdirilirdi. Tədbiri giriş sözü ilə qoruğun direktoru Mübariz Xəlilov açaraq Xanəgah haqqında ətraflı məlumat verdi.

Azərbaycan MEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, akademik Məşədixanım Nemət Xanəgahın epiqrofik yazılarından, islam mədəniyyətində oynadığı roldan danışdı.

M. V. Lomonosov adına MDU-nun kafedra müdiri, Rusiya Prezidenti yanında İctimai Elmlər Akademiyasının müəllimi, t.e.d , böyük islamşünas alim, professor Qasım Kərimov İslamda sufizm haqqında ətraflı məlumat verdi.

Bakıda yaşayan Hacıqabul ziyalıları Cəmiyyətinin İdarə heyətinin üzvü, əməkdar elm xadimi, N. Nərimanov adına ATU-nun kafedra müdiri, professor İbadulla Ağayev çıxış edərək Şirvanşahlar Saray Kompleksi Tarix-Memarlıq Qoruq Muzeyinin əməkdaşlarına və Nazirlər Kabineti yanında İçərişəhər Tarix-Memarlıq Qoruğunun rəhbərliyinə yaratdıqları şəraitə görə minnətdarlıq etdi.

Hacıqabul Elmi ekspedisiyasının rəhbəri arxeoloq Şirzad Əhmədov Hacıqabulda aparılan arxeoloji qazıntılardan və zəngin maddi-mədəniyyət abidələrindən bilgilər verdi və göstərdi ki, ərazidə geniş miqyaslı arxeoloji qazıntılara eytiyac vardır. Hacıqabul Rayon Tarix-Diyarşünaslıq Muzeyinin baş fond mühafizəçisi Məhəmməd İsayev bildirdi ki, Xanəgah orta əsrlərdə Şirvanın dini mərkəzi olmuşdur.

Hacıqabul gölünün şərq sahilində yerləşən orta əsrlər karvansarayı Həcc ziyarətinə gedən zəvvarların toplanış yeri sayılmış və burada qarşılanaraq "Həccin qəbul" deyərlərmiş.Elə Hacıqabul adı da buradan götürülmüşdür.

Şirvanşahlar Saray Kompleksi Tarix-Memarlıq Qoruq Muzeyinin direktor əvəzi Sevil xanım gözəl tədbirə görə Hacıqabul Rayon Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunun rəhbərliyinə minnətdarlıq etdi.

**Axırda Hacıqabul Rayon Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunun direktoru akademik Məşədixanım Nemətə, professor Qasım Kərimova və Şirvanşahlar Saray Kompleksi Tarix-Memarlıq Qoruq Muzeyinə hədiyyə olaraq xalçalar bağışladı.**

**● Mübariz XƏLİLOV,**
***Hacıqabul Rayon Pir Hüseyn Xanəgahı Tarix-Memarlıq Qoruğunun direktoru***